**Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri”ndə dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 450) ilə təsdiq edilmiş “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci fəsil üzrə:

1.1. adına “1” rəqəmindən əvvəl “Fəsil” sözü əlavə edilsin;

1.2. mətni 1-ci maddə hesab edilsin və həmin maddədə aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. birinci və ikinci hissələr aşağıdakı redaksiyada verilsin:

“1. Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları poqonlardır. Prokurorluğun ali xüsusi və xüsusi rütbəli işçilərinin gündəlik geyim formasında daşınan poqonlar gümüşü rəngdə, səhra geyim formasının poqonları isə göy rəngdədir. Poqonlar paltonun, gödəkcələrin, pencəyin, köynəklərin (yun, uzunqol və qısaqol), səhra geyim formasının çiynində daşınır. Daşınma üsuluna görə poqonlar taxılıb-çıxarılan və tikiləndir. Taxılıb-çıxarılan poqonlar köynəklərdə (yun, uzunqol və qısaqol) və səhra geyim formasının gödəkcələrində, tikilən poqonlar isə paltoda, gödəkcələrdə (səhra geyiminin gödəkcələri istisna olmaqla) və pencəkdə daşınır.

Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün yarımyumşaq materialdan hazırlanmış poqonun aşağı hissəsi düzbucaqlı, paralel tərəflərinin uzunluğu 15 və 17 sm olmaqla arxa tərəfi iti, ön tərəfi kor bucaq şəklində, eni isə 6 sm olur. Gündəlik geyim formasında daşınan poqonun yan kənarları 4 mm enində yaşıl mahuddan hazırlanmış kantla haşiyələnir. Xüsusi rütbəli işçilər üçün poqonun yuxarı hissəsi yarımdairəvi, orta xətt üzrə uzunluğu 17 sm, eni 5 sm olur. Gündəlik geyim formasında daşınan poqonun kənarları, aşağı kənarı istisna olmaqla, 4 mm enində yaşıl mahuddan hazırlanmış kantla haşiyələnir.”;

1.2.2. üçüncü hissədə “paqonları” sözü “poqonları” sözü ilə əvəz edilsin;

1.2.3. dördüncü hissənin birinci cümləsində “paqonunun” sözü və ikinci cümləsində “Paqonun” sözü müvafiq olaraq “poqonunun” sözü və “Poqonun” sözü ilə əvəz edilsin;

1.2.4. beşinci, altıncı və yeddinci hissələrin birinci cümlələrində “paqonu” sözü və ikinci cümlələrində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin və yeddinci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşavirinin səhra geyim formasının poqonları göy parça üzərində xüsusi toxunmuş göy rəngli liflərdən hazırlanır və onların üzərində müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Gerbi və səkkizguşəli ulduzlar qara rəngli liflərdən hörülür (şəkil 4-1).”;

1.2.5. səkkizinci və on ikinci hissələrdə “paqonları” sözü və “paqonun” sözü müvafiq olaraq “poqonları” sözü və “poqonun” sözü ilə əvəz edilsin;

1.2.6. doqquzuncu, onuncu, on üçüncü, on dördüncü və on beşinci hissələrin birinci cümlələrində “paqonu” sözü və üçüncü cümlələrində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin;

1.2.7. on birinci hissənin birinci cümləsində “paqonu” sözü və ikinci cümləsində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

“Baş ədliyyə müşavirinin, Ədliyyə müşavirinin və Kiçik ədliyyə müşavirinin səhra geyim formasının göy rəngli poqonları üzərində poqonun uzununa doğru mərkəzdən bir-birindən 10 mm aralı hər birinin eni 3 mm olmaqla qara rəngli iki paralel xətt olur. Müvafiq olaraq poqonların üzərində qara metaldan səkkizguşəli ulduzlar və prokurorluğun emblemi bərkidilir (şəkil 12-1).”;

1.2.8. on beşinci hissəyə aşağıdakı məzmunda dördüncü və beşinci cümlələr əlavə edilsin:

“I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünasın səhra geyim formasının göy rəngli poqonları üzərində poqonun uzununa doğru mərkəzdə eni 3 mm olan bir qara rəngli xətt olur. Müvafiq olaraq poqonların üzərində qara metaldan səkkizguşəli ulduzlar və prokurorluğun emblemi bərkidilir (şəkil 12-2).”;

1.2.9. on altıncı hissə aşağıdakı redaksiyada verilsin:

“Baş ədliyyə müşaviri, Ədliyyə müşaviri, Kiçik ədliyyə müşaviri, I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünasın poqonları yuxarı hissədən pencəyə, paltoya, gödəkcələrə, köynəklərə (yun, uzunqol və qısaqol) diametri 15 mm olan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli, səhra geyim formasına isə qara rəngli metaldan hazırlanmış düymə ilə bərkidilir.”.

2. Aşağıdakı məzmunda 2-ci maddə əlavə edilsin:

“2. Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının gündəlik geyim formasında daşınan poqonlar tünd zeytun rəngdə, səhra geyim formasının poqonları isə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan tikilir. Poqonlar paltonun, yarımpaltonun, plaşın, gödəkcələrin, pencəyin, köynəklərin (yun, uzunqol və qısaqol), səhra geyim formasının çiynində daşınır. Daşınma üsuluna görə poqonlar taxılıb-çıxarılan və tikiləndir (şəkillər 12-3–12-7).

Ali zabitlər tikilmə poqonları paltoda, yarımpaltoda, plaşda, gödəkcələrdə (səhra geyiminin gödəkcələri istisna olmaqla) və pencəkdə daşıyırlar. Baş və kiçik zabitlər tikilmə poqonları paltoda, yarımpaltoda, plaşda və pencəkdə daşıyırlar. Ali zabitlərin poqonlarının kənarlarında yaşıl rəngli kant vardır. Ali zabitlərin tikilmə poqonlarının aşağı kənarından 10 mm məsafədə aypara formasında palıd yarpaqları, ayparanın ortasında prokurorluğun emblemi yerləşdirilir. Ali zabitlərin poqonlarında ulduzlar və emblemlər qızılı (səhra geyim forması üçün isə tünd yaşıl) rəngli sap ilə tikilir (şəkil 12-3). Baş zabitlərin tikilmə poqonlarının aşağı kənarından 12 mm məsafədə qızılı rəngli metaldan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çarpazlaşdırılmış qılınclarsız emblemi və səkkizguşəli ulduz yerləşdirilir (şəkil 12-4). Emblemin ölçüləri 40 x 25 mm-dir. Tikilmə poqonların aşağı kənarının eni ali zabitlər üçün 56 mm, digər zabitlər üçün 50 mm, yuxarı kənarının eni ali zabitlər üçün 40 mm, digər zabitlər üçün isə 35 mm-dir.

Kiçik zabitlərin tikilmə poqonlarında onların hərbi rütbələrinə müvafiq olaraq metaldan qızılı rəngli səkkizguşəli ulduzlar yerləşdirilir. Ulduzlar guşələrindən biri poqonun düyməsinə doğru istiqamətlənmiş halda yerləşdirilir (şəkil 12-5).

Ali zabitlər taxılıb-çıxarılan poqonları səhra geyim formasının gödəkcələrində, köynəklərdə (yun, uzunqol və qısaqol), baş və kiçik zabitlər qış gödəkcəsində, uzunqol (qısaqol) gödəkcələrdə, səhra geyim formasının gödəkcələrində, yun köynəklərdə və köynəklərdə (uzunqol və qısaqol) daşıyırlar. Taxılıb-çıxarılan poqonlar poqon üçün nəzərdə tutulan kəmərciklərə taxılır, yuxarı hissəsində tünd zeytun rəngli (köynəklərdə sarıya çalan açıq qəhvəyi rəngli) kiçik forma düyməsi yerləşdirilir. Ali zabitlərin taxılıb-çıxarılan poqonlarının hazırlanma qaydası onların tikilmə poqonları ilə eynidir.

Baş və kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarında ulduzlar və emblemlər qızılı (səhra geyim forması üçün isə tünd yaşıl) rəngli sap ilə tikilir.

Baş zabitlərin taxılıb-çıxarılan poqonlarında səkkizguşəli ulduzlardan əlavə poqonun aşağı kənarında ölçüləri 40 x 25 mm olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çarpazlaşdırılmış qılınclarsız emblemi, yuxarı kənarında isə eni 22 mm olan prokurorluğun emblemi yerləşdirilir. Kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarında səkkizguşəli ulduzlardan əlavə poqonun yuxarı kənarında eni 22 mm olan prokurorluğun emblemi qızılı rəngli sapla tikilir.

Ali zabitlərin taxılıb-çıxarılan poqonlarının ölçüləri onların tikilmə poqonlarının ölçüləri ilə eynidir. Baş və kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarının uzunluğu 125 mm, aşağı hissəsinin eni 60 mm-dir.

Zabitlərin heyətindən asılı olaraq, onların poqonlarındakı ulduzların ölçüləri müxtəlifdir: ali zabitlər üçün – 25 mm, baş zabitlər üçün – 22 mm, kiçik zabitlər üçün –17 mm-dir (şəkillər 12-6, 12-7).

Zabitlərin poqonlarındakı ulduzlar uzununa sıra ilə yerləşdirilir. Hərbi rütbədən asılı olaraq, poqonlarda ulduzların sayı aşağıdakı kimidir:

ədliyyə general-polkovniki - 3 ulduz;
ədliyyə general-leytenantı - 2 ulduz;
ədliyyə general-mayoru - 1 ulduz;
ədliyyə polkovniki - 3 ulduz;
ədliyyə polkovnik-leytenantı - 2 ulduz;
ədliyyə mayoru - 1 ulduz;
ədliyyə kapitanı - 4 ulduz;
ədliyyə baş leytenantı - 3 ulduz;

ədliyyə leytenantı - 2 ulduz.

Poqonlar üçün nəzərdə tutulan kəmərciklər gödəkcələr, köynəklər (yun, uzunqol və qısaqol) və səhra geyimində adi, palto, yarımpalto, plaş və pencəkdə isə üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli kiçik forma düyməsi ilə düymələnir.".

3. 2-ci fəsil üzrə:

3.1. adına "2" rəqəmindən əvvəl "Fəsil" sözü əlavə edilsin;

3.2. 2.1-ci maddə 3-cü maddə hesab edilsin və həmin maddədə aşağıdakı dəyişikliklər edilsin:

3.2.1. birinci hissə aşağıdakı redaksiyada verilsin:

"3. Prokurorluq işçilərinin geyim forması gündəlik və səhra geyim dəstindən ibarətdir. Gündəlik geyim formasının tərkibinə üst geyimləri (palto, gödəkcə, kostyum (pencək, şalvar (qadınlar üçün yubka və şalvar), baş geyimləri (qış papağı, furajka (qadınlar üçün beret), ayaqqabılar (tufli, yarımçəkmə), digər əşyalar (yun, uzunqol və qısaqol köynəklər, qalstuk, şərf, şalvar qayışı, əlcək və corab) daxildir.";

3.2.2. ikinci hissənin birinci cümləsində "iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur." sözləri "göy rəngli kabardin parçadan tikilir və iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur." sözləri ilə əvəz edilsin;

3.2.3. səkkizinci hissəyə "Qadınlar üçün" sözlərindən sonra "eyni biçimli şalvar və" sözləri əlavə edilsin;

3.2.4. on səkkizinci hissə aşağıdakı redaksiyada verilsin:

"Gödəkcə göy rəngli sukeçirməyən parçadan tikilir. Düz siluetli, qatlanan boyunluqlu, ön hissəsində mərkəzdən dörd böyük adi düymə ilə gizli düymələnən, hər iki yanında üstü qapaqlarla örtülən fiqurlu basmadüymə ilə düymələnən və iki yan kəsmə içəriyə tikilən cibləri vardır. İçəri hissəsində zəncirbəndlə bağlanan və açılıb çıxarılan istiləşdirilmiş astarı vardır. Astarın döş hissəsinin hər iki yanında zəncirbəndlə bağlanan daxili ciblər tikilir. Gödəkcənin ön hissəsinin qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və gödəkcənin boyunluğunun üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Gödəkcənin digər fərqlənmə nişanları paltoda olan fərqlənmə nişanları ilə eynidir (şəkillər 26-1, 26-2).";

3.2.5. on doqquzuncu hissədə "plaş" sözü "gödəkcə" sözü ilə əvəz edilsin;

3.2.6. on birinci – on doqquzuncu hissələr müvafiq olaraq on ikinci – iyirminci hissələr hesab edilsin və aşağıdakı məzmunda on birinci hissə əlavə edilsin:

"Yun köynək göy rənglidir, yundan toxunulur, yaxası üçbucaq şəkillidir, aşağı kənarlarına manjet tikilmişdir, çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Köynəyin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir, üzərində heç bir fərqlənmə nişanı yoxdur (şəkillər 19-1, 19-2).";

3.3. 2.2-ci maddə 4-cü maddə hesab edilsin;

3.4. 2.3-cü maddə 5-ci maddə hesab edilsin və həmin maddənin birinci hissəsinin üçüncü cümləsində "paqonlarla" sözü və "paqon" sözü müvafiq olaraq "poqonlarla" sözü və "poqon" sözü ilə, dördüncü cümləsində "Paqonun" sözü "Poqonun" sözü ilə əvəz edilsin və həmin maddənin ikinci hissəsinə "düymələnir" sözündən sonra ", şalvar" sözü və "qış" sözündən sonra "şalvarı və" sözləri əlavə edilsin;

3.5. 2.4-cü maddə 6-cı maddə hesab edilsin;

3.6. 2.5-ci maddə 7-ci maddə hesab edilsin və həmin maddədə “qayış” sözü “şalvar qayışı” sözləri ilə əvəz edilsin;

3.7. 3-cü maddə 8-ci maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

“8. Səhra geyim formasının tərkibinə üst geyimləri (qış gödəkcəsi, yay gödəkcəsi, qış şalvarı, yay şalvarı, səhra jileti, uzunqol və qısaqol mayka), baş geyimləri (papaq, qış və yay furajkası), ayaqqabılar (uzunboğaz çəkmə), digər əşyalar (əlcək, corab, şalvar qayışı) daxildir.

Qış və yay gödəkcəsi göy rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, qatlanan boyunluqludur. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər adi düymə və ilgəklə və yaxud basmadüymə ilə düymələnir. Gödəkcələr ətəyinə qədər astarlıdır. Kürəyi bütövdür. Qolları ikitikişlidir, dirsək hissələrinə gödəkcənin öz rəngində əlavə qat tikilmişdir. Gödəkcələrin içərisində bel səviyyəsindən tənzimləyici qaytan keçirilir. Qolları yarıqlı və manjetlidir, öz rəngində düymə və ilgəklə düymələnir. Gödəkcələr bel kəmərsiz geyinilir. Gödəkcələrin yaxalığında Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür (şəkil 125). Gödəkcələrin sağ döş cibinin qapağı üzərinə üstündə prokurorluq işçisinin soyadı, inisialı və qan qrupu, sol döş cibinin qapağı üzərinə isə vəzifəsi göstərilən göy rəngli döş nişanı tikilir. Laylarında yan kəsmə qapaqlı cibləri vardır (şəkillər 31–34). Qış gödəkcəsinin Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri, III dərəcəli dövlət ədliyyə müşaviri üçün boz rəngli təbii qaragül dərisindən taxılıb-çıxarılan yaxalığı vardır (şəkillər 31–32).

Qış şalvarı istiləşdirilmiş astar əlavə edilməklə göy rəngli qalın parçadan tikilir. Şalvarla birlikdə biçilmiş qurşağı, üstdən tikilmiş və adi, görünməyən düymələrlə düymələnən, qapaqlı yan, qapaqlı kəsmə arxa və kəsmə yan cibləri vardır. Qurşaqda yan tikiş yerlərinin üstündə belin ölçüsünü tənzimləyən, iki düymə ilə düymələnən iki kəmərcik və ləvazimat gəzdirmək üçün yeddi enli halqa vardır. Şalvarın miyançası biri qurşaqda olan dörd düymə ilə düymələnir. Şalvarın balaqları düz və yaxud enli elastik lentdən üzəngili olur (şəkillər 31–32).

Yay şalvarı göy rəngli nazik parçadan tikilir və astarsız olur. Yay şalvarının digər göstəriciləri qış şalvarı ilə eynidir.

Səhra jileti sukeçirməyən parçadan tikilir, qatlanan boyunluqludur. Ön hissəsi mərkəzdən zəncirbəndlə bağlanılır, düz siluetli və astarlıdır. Ətəyində içəriyə tikilən iki kəsmə yan cibləri vardır. Səhra jiletinin ön hissəsində sol tərəfində prokurorluğun embleminin təsviri, sağ tərəfində isə “Azərbaycan Prokurorluğu” sözləri vardır. Arxa hissəsində mərkəzdə “Azərbaycan Prokurorluğu” sözləri ilə əhatə olunan prokurorluğun embleminin təsviri və ondan 10 sm aşağıda yapışqanla taxılıb-çıxarılan eni 10 sm, uzunluğu isə 14 sm olan düzbucaq formada prokurorluğun müvafiq qurumunun adı yerləşdirilir (şəkil 35).

Uzunqol və qısaqol maykalar göy rəngli pambıq parçadan tikilir. Yaxası boğaza kimidir.

Papaq Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri, III dərəcəli dövlət ədliyyə müşaviri üçün boz rəngli təbii qaragül dərisindən tikilir. Günlük bərk materialdan hazırlanır. Papaqların fərqlənmə nişanları gündəlik geyim formalarının papaqlarında olan fərqlənmə nişanları ilə rəng istisna olmaqla eynidir (şəkillər 31–32).

Qış furajkası göy rəngli parçadan hazırlanır. Üç yan, bir ön xişdəkdən, qulaqlıqdan və günlük hissələrdən ibarətdir. İstiləşdirilmiş astarı vardır. Günlük üzərinə göy rəngli parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng və qaytanlar istisna olmaqla eynidir, gündəlik geyim formalarının furajkalarında olan qaytanların yerinə papağın ön tərəfində Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün palıd, Baş ədliyyə müşaviri, Ədliyyə müşaviri, Kiçik ədliyyə müşaviri, I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünas üçün isə dəfnə yarpaqları qara rəngli sapla tikilir (şəkillər 33–34).

Yay furajkası göy rəngli parçadandır, üç yan, bir ön xişdəkdən və günlük hissələrdən ibarətdir. Furajkanın ön xişdəyinin üzərində prokurorluq işçiləri üçün müəyyən edilmiş qara rəngli tikmə kokarda vardır. İki arxa xişdək furajkanın ölçüsünü tənzimləyən elastik lentlə yığılır. Günlük üzərinə göy rəngli parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları səhra geyiminin qış furajkası ilə eynidir (şəkillər 33–34).

Uzunboğaz çəkmə qara rəngdədir, dabanı və altlığı bütövdür, qəliblənmişdir, bağları vardır, burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Əlcək qara rəngli dəridən hazırlanır.

Corab qara rəngdədir və uzunboğaz çəkmə ilə geyinilir.

Şalvar qayışı qara rəngdədir.";

3.8. 4-cü maddə 9-cu maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

"9. Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının geyim forması gündəlik və səhra geyim dəstindən ibarətdir.

Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının gündəlik geyim formasının tərkibinə üst geyimləri (palto, demisezon yarımpalto, plaş, qış gödəkcəsi, uzunqol (qısaqol) gödəkcə, şalvar, qış (yay) kostyumu (pencək, şalvar (qadınlar üçün yubka və şalvar), baş geyimləri (furajka (qadınlar üçün beret), papaq), ayaqqabılar (tufli, yarımboğaz (qadınlarda uzunboğaz) çəkmə), digər əşyalar (uzunqol və qısaqol köynəklər və maykalar, yun köynək, qalstuk, şərf, şalvar qayışı, əlcək, corab (qadınlar üçün bədən dərisi rəngli neylondan) və qobur) daxildir.

Palto tünd zeytun rəngli parçadan tikilir. İki tərəfi düymələnən, qatlama yaxalıqlı, arxadan tikişli və aşağı hissəsində bir açıq büküklü, içəri tikilmiş üstü qapaqlı yan cibləri olur. Qolları ikitikişli, köbəli və içəridən tikiləndir. Vatinlə istiləşdirilmiş astarlıdır. Astarında iki kəsmə qoltuq cibi vardır. Paltonun qol köbəsinin üstündən yaşıl rəngli mahuddan kant tikilir. Ali zabitlər üçün yaxalıq qəhvəyi rəngli təbii qaragül dərisindəndir. Paltonun yaxasına diametri 20 mm olan qızılı rəngli metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş hər cərgədə iki ədəd olmaqla üç cərgə düymə tikilir, düymələrdən üçü işlək, qalanları isə dekorativ olur. Palto tikilmə poqonlarla geyinilir. Paltonun çiyinlərində öz rəngində poqonların bərkidilməsi üçün kəmərcikləri vardır. Kəmərciklər üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli metal düymə ilə düymələnir. Paltonun hər iki yanında üstü qapaqlarla örtülən içəriyə tikilən cibləri olur, qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və paltonun yaxalığının üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Manjetlərin hər birinə diametri 15 mm olan qızılı rəngli metaldan hazırlanmış üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk

olunmuş üç ədəd kiçik düymə sıra ilə tikilir. Döşəmədən paltonun ətəyinədək olan məsafə 40-42 sm-dir (şəkillər 36–38).

Ali zabitlərin paltosunun yaxalıqlarının üst hissəsinə eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür. Paltonun qollarındakı manjetlərin altında 6 mm məsafədə 3 mm diametri olan qızılı rəngli qaytan, daha aşağı 6 mm məsafədə eni 12 mm olan qızılı rəngli palıd yarpaqları hörülür (şəkil 36).

Baş və kiçik zabitlərin paltosunun yaxalıqlarının üst hissəsinə qızılı rəngli metaldan hazırlanmış prokurorluğun emblemi bərkidilir (şəkillər 37–38).

Demisezon yarımpalto (ali zabitlər üçün qəhvəyi rəngli təbii qaragül boyunluqlu) tünd zeytun rəngli parçadan tikilir və ətəyi dizdən 5 sm yuxarıdır. Yarımpaltonun digər göstəriciləri və fərqlənmə nişanları palto ilə eynidir (şəkillər 39–41).

Plaş tünd zeytun rəngli parçadan palto formasında tikilir. Plaşın beldən bağlanan, eni 50 mm olan kəməri olur. Plaşın digər göstəriciləri və fərqlənmə nişanları palto ilə (ali zabitlərdə yaxalıq istisna olmaqla) eynidir (şəkillər 42–44).

Qadınlar üçün palto, yarımpalto və plaş eynibiçimli olur, lakin sol tərəfə düymələnir (şəkillər 45–53).

Qış gödəkcəsi tünd zeytun rəngli parçadan tikilir, bortları ortadan görünməyən zəncirbənd və altı basmadüymələrlə bağlanır. Ali zabitlər üçün qəhvəyi rəngli təbii qaragül, digər zabitlər üçün isə süni xəzdən olan taxılıb çıxarılan boyunluqludur. Laylarında yan kəsmə qapaqlı ciblər vardır, kürəyi bütöv, düz siluetlidi, qolları təktikişlidir. Gödəkcə ali zabitlər üçün tikilmə, digər zabitlər üçün taxılıb-çıxarılan poqonlarla geyinilir. Adi düymə ilə düymələnən taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Gödəkcənin taxılıb-çıxarılan süni xəzdən istiləşdirilmiş astarı vardır (şəkillər 54–59).

Qış (yay) kostyumunun pencəyi tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur. Pencək ətəyinədək astarlıdır, hər cərgədə iki ədəd olmaqla üç cərgə, diametri 20 mm olan qızılı rəngli metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş düymələr tikilir və aşağı iki cərgə düymələrdən ikisi işlək, qalanları isə dekorativ olur. Pencəyin hər iki yanında üstü qapaqlarla örtülən içəriyə tikilən cibləri, sol döş hissədə qapaqsız içəriyə tikilən cibi olur, qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və pencəyin yaxalığının üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Manjetlərin hər birinə diametri 15 mm olan qızılı rəngli metaldan hazırlanmış üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş üç ədəd düymə sıra ilə tikilir. Pencəyin arxa hissəsində iki (sağ və sol) tərəfdən bükük ilə tamamlanan tikiş vardır. Pencəyin çiyinlərində həmin parçadan tikilmiş, poqonların bərkidilməsi üçün kəmərciklər vardır. Kəmərciklər qızılı rəngli kiçik düymələr ilə düymələnir. Kişilərdə pencək sağ, qadınlarda isə sol tərəfə düymələnir (şəkillər 60–65).

Ali zabitlərin pencəyinin və gödəkcələrinin yaxalıqlarının üst hissəsinə eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür. Pencəyin qollarındakı manjetlərin altında 6 mm məsafədə 3 mm diametri olan qızılı rəngli qaytan, daha aşağı 6 mm məsafədə eni 12 mm olan qızılı rəngli palıd yarpaqları hörülür (şəkillər 60, 63, 125).

Baş və kiçik zabitlərin pencəyinin və gödəkcələrinin yaxalıqlarının üst hissəsinə qızılı rəngli metaldan hazırlanmış prokurorluğun emblemi bərkidilir (şəkillər 61, 62, 64, 65, 125).

Uzunqol (qısaqol) gödəkcə tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir. Gödəkcələrin qurşağı manjetlidir, astarlıdır, qatlanan yaxalıqlıdır, ön hissəsi mərkəzdən zəncirbəndlə bağlanılır, kürəyi bütöv biçimlidir, qollar qol dibinə tikilir. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər basmadüymə ilə düymələnir. Gödəkcələrin sol və sağ ətəyinin döş nahiyəsinə iç tərəfdən asılma ciblər tikilmişdir. Gödəkcələrin yaxalığında ali zabitlər üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür (şəkillər 66–77).

Qış (yay) kostyumunun və uzunqol (qısaqol) gödəkcənin şalvarları tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq pencəyin və gödəkcələrin tikildiyi eyni parçadan) manjetsiz tikilir, qurşaq aşırma ilgəklə düymələnir. Şalvarın kəsmə yan cibləri və arxadan sağ tərəfində qapaqlı kəsmə cibi vardır. Şalvarın miyançası qarmaqla və zəncirbəndlə bağlanılır. Qurşaqda kəmər üçün yeddi ensiz halqa vardır. Şalvarların yan tikişi boyu 2,5 mm enində yaşıl rəngli kant tikilir. Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşavirinin şalvarlarındakı kanta paralel hər iki hissədə ondan 0,5 sm aralı eni 22 mm olan yaşıl rəngli yun parçadan iki zolaq tikilir (şəkillər 66–68, 72–74).

Yubka tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq pencəyin və gödəkcələrin tikildiyi eyni parçadan) tikilir. Tikilmə qurşaqlıdır, sarja, yaxud sətin astarı vardır. Arxasında zəncirbənd və bükük vardır, ön hissəsi iki parçadan ibarətdir. Arxa və ön hissələri bel səviyyəsində köklənmişdir, dizləri örtür (şəkillər 63–65, 69–71).

Yun köynək tünd zeytun rənglidir, yaxası üçbucaq şəkillidir, aşağı kənarlarına manjet tikilmişdir, çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Köynəyin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir. Üzərində heç bir fərqlənmə nişanı yoxdur (şəkillər 78–81).

Köynək uzunqol və qısaqol olmaqla, sarıya çalan açıq qəhvəyi rəngli köynəklik parçadan tikilir. Tikilmə dik yaxalıqlıdır, bortu ortadan düymələnir, poqonlar üçün kəmərcikləri, fiqurlu qapaqlı iki döş cibi, ciblərin ortasında qatlama vardır. Qolları yarıqlı və manjetlidir (yalnız uzunqol köynəkdə). Kəmərciklər, bortlar, fiqurlu qapaqlar və manjetlər adi düymələrlə düymələnir. Kürəyi koketkalıdır. Ətəyi qurşaqlı, yanlardan rezinlidir. Qadın hərbi qulluqçular üçün köynəyin ön hissəsi yan tikişlərlə köklənmişdir. Köynək tünd zeytun rəngli taxılıb-çıxarılan poqonlarla geyinilir (şəkillər 82–93).

Mayka uzunqol və qısaqol olmaqla, tünd zeytun rəngli pambıq parçadan tikilir. Yaxası boğaza kimidir. Uzunqol (qısaqol) gödəkcə ilə daşınmaq üçün nəzərdə tutulmuşdur.

Şalvar qayışı qara rəngli dəridən hazırlanır.

Qalstuk qara rəngli parçadan hazırlanır.

Şərf tünd zeytun rəngli yun parçadan hazırlanır. Ölçüləri 120 x 20 sm-dir.

Əlcək qara rəngli dəridəndir.

Corab qara (göy) rəngdədir. Qadın hərbi qulluqçular bədən dərisi rəngində neylon və ya yarımyun uzunboğaz corab geyinirlər.

Tufli qara rəngli dəridən hazırlanır. Tənzimləyici rezinciyi, yaxud bağları vardır. Dabanı qəliblənmiş, altlığı göndəndir. Burnu və arxa hissəsi möhkəmləndirilmişdir. Yay ayaqqabısı alçaq dabanlıdır. Burnu ensiz, arxa hissəsi möhkəmləndirilmişdir.

Yarımboğaz (qadınlarda uzunboğaz) çəkmə qara rəngli dəridən hazırlanır. Dabanı alçaq (qadınlarda orta) ölçüdədir. Burnu ensizdir. Zəncirbəndlə bağlanır. Burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Qobur xidməti silahı gəzdirmək üçün nəzərdə tutulub, qara və yaxud qəhvəyi rəngdə olmaqla dəridən hazırlanır.

Furajka tünd zeytun rəngli parçadan hazırlanır. Onun üst dövrəsi yaşıl rəngli kantla əhatə olunur, qara laklı günlüyü olur. Ali zabitlərin furajkasının qabağında qızılı rəngli saplardan toxunmuş eni 15 mm olan ikiqat hörmə qaytan qızılı rəngli sapla yenidən eşilərək diametri 15 mm olan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki düymə ilə bərkidilir. Qaytandan yuxarı furajkanın dövrəsinin üzərində tam ortada palıd yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir (şəkil 126). Palıd yarpaqları sap ilə tikilir, prokurorluğun emblemi isə metaldan hazırlanır. Furajkanın günlüyünün üstündə kənarı boyu simmetrik şəkildə qızılı rəngli palıd yarpaqları olur (şəkil 94).

Baş zabitlərin furajkalarında eni 10 mm olan qızılı rəngli saplardan hörülmüş hörmə qaytan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki kiçik düymə ilə bərkidilir. Qaytandan yuxarı furajkanın dövrəsinin üzərində tam ortada qızılı rəngli dəfnə yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir (şəkil 127). Dəfnə yarpaqları sap ilə tikilir, prokurorluğun emblemi isə metaldan hazırlanır. Furajkanın günlüyünün üstündə kənarı boyu simmetrik şəkildə dəfnə yarpaqları olur (şəkil 95).

Kiçik zabitlərin furajkasının kokardası metaldan olan prokurorluğun emblemindən ibarət olur və günlüyün üzərində fərqlənmə nişanı yerləşdirilmir (şəkillər 96, 128).

Qış fəslində geyinmək üçün qara rəngli laklanmış günlüyü olan qəhvəyi rəngdə xəzdən papaq hazırlanır. Papaqların fərqlənmə nişanları furajkalarda olan fərqlənmə nişanları ilə eynidir (şəkillər 97–99).

Qadınlar üçün müvafiq olaraq beret və qəhvəyi rəngdə xəzdən günlüksüz papaq hazırlanır (şəkillər 100–105).

Qadın hərbi qulluqçular üçün nəzərdə tutulmuş beret tünd zeytun rəngli parçadan tikilir, oval formalı dibcikdən, təpə, dövrə, günlük hissələrindən, qızılı rəngli lentdən və üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki kiçik düymədən ibarətdir. Eni 9 sm olan kənarları yanlardan və arxadan qaldırılır. Təpə hissəsinin kənarına həmin parçadan eni 3 mm olan kant tikilir (şəkillər 100–102).

Ali zabitlərin beretinin ön hissəsinin üzərində tam ortada palıd yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir və günlüyünün kənarı boyu simmetrik şəkildə qızılı rəngli palıd yarpaqları olur (şəkil 100).

Baş zabitlərin beretinin kokardası qızılı rəngli dəfnə yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarətdir. Beretin günlüyünün kənarı simmetrik olaraq dəfnə yarpaqları ilə əhatə olunur (şəkil 101).

Kiçik zabitlərin beretinin kokardası prokurorluğun emblemindən ibarət olur və günlüyün üzərində fərqlənmə nişanı yerləşdirilmir (şəkil 102).

Günlüksüz xəz papağın üzərinə kokarda bərkidilir və onun digər göstəriciləri beretdə olanlarla eynidir (şəkillər 103–105).”;

3.9. 4.1-ci maddə 10-cu maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

“10. Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının səhra geyim formasının tərkibinə üst geyimləri (qış gödəkcəsi, yay gödəkcəsi, qış şalvarı, yay şalvarı, yun köynək, uzunqol və qısaqol mayka), baş geyimləri (qış furajkası (ali zabitlər üçün tünd qəhvəyi rəngli papaq, yay furajkası), ayaqqabılar (uzunboğaz çəkmə), digər əşyalar (əlcək, corab, qayış, yol çantası) daxildir.

Qış (yay) gödəkcəsi ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, qatlanan boyunluqludur. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər adi düymə və ilgəklə və yaxud basmadüymə ilə düymələnir. Gödəkcələr ətəyinə qədər astarlıdır, kürəyi bütövdür, qolları ikitikişlidir, dirsək hissələrinə gödəkcənin öz rəngində əlavə qat tikilmişdir. Gödəkcələrin içərisində bel səviyyəsindən tənzimləyici qaytan keçirilir. Gödəkcələrin qolları yarıqlı və manjetlidir, öz rəngində düymə ilə və ilgəklə düymələnir. Gödəkcələrin bel kəməri olmur. Gödəkcələrin yaxalığında ali zabitlər üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür. Gödəkcənin sağ döş cibinin qapağı üzərinə üstündə hərbi qulluqçunun soyadı, inisialı və qan qrupu, sol döş cibinin qapağı üzərinə isə vəzifəsi göstərilən ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan döş nişanı tikilir. Laylarında yan kəsmə qapaqlı cibləri vardır (şəkillər 106–114). Qış gödəkcəsinin ali zabitlər üçün tünd qəhvəyi, təbii qaragül dərisindən taxılıb-çıxarılan yaxalığı vardır (şəkillər 106, 109).

Qış şalvarı istiləşdirilmiş astar əlavə edilməklə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan tikilir. Şalvarla birlikdə biçilmiş qurşağı, üstdən tikilmiş və adi, görünməyən düymələrlə düymələnən, qapaqlı yan, qapaqlı kəsmə arxa və kəsmə yan cibləri vardır. Qurşaqda yan tikiş yerlərinin üstündə belin ölçüsünü tənzimləyən, iki düymə ilə düymələnən iki kəmərcik və ləvazimat gəzdirmək üçün yeddi enli halqa vardır. Şalvarın miyançası biri qurşaqda olan dörd düymə ilə düymələnir. Şalvarın balaqları düz və yaxud enli elastik lentdən üzəngili olur (şəkillər 106–111).

Yay şalvarı ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş nazik parçadan tikilir və astarsız olur. Yay şalvarının digər göstəriciləri qış şalvarı ilə eynidir (şəkillər 112-117).

Yun köynək ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş yun parçadan toxunulur, yaxası boğaza kimidir. Aşağı kənarlarına manjet tikilmişdir. Yun köynəyin çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Yun köynəyin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir. Yun köynəyin sol qolunun xarici səthinə cib tikilir, üzərində heç bir fərqlənmə nişanı yoxdur.

Uzunqol və qısaqol maykalar ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş pambıq parçadan tikilir, yaxası boğaza kimidir.

Ali zabitlər üçün papaq tünd qəhvəyi rəngli təbii qaragül dərisindən tikilir. Papağın günlüyünün üstünə ali zabitlər üçün müəyyən edilmiş tünd yaşıl rəngdə naxışı olan, ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan üzlük tikilir, günlük

bərk materialdan hazırlanır. Papaqların fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng istisna olmaqla eynidir (şəkil 118).

Qış furajkası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanaraq, üç yan, bir ön xişdəkdən, qulaqlıqdan və günlük hissələrdən ibarətdir. Furajkanın istiləşdirilmiş astarı vardır, günlüyü üzərinə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng və qaytanlar istisna olmaqla eynidir. Gündəlik geyim formalarının furajkalarında olan qaytanların yerinə papağın ön tərəfində ali zabitlər üçün palıd, baş zabitlər üçün isə dəfnə yarpaqları qara rəngli sapla tikilir (şəkillər 119–121).

Yay furajkası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanaraq, üç yan, bir ön xişdəkdən və günlük hissələrdən ibarətdir. Furajkanın ön xişdəyinin üzərində tünd yaşıl rəngli tikmə kokarda vardır. İki arxa xişdək furajkanın ölçüsünü tənzimləyən elastik lentlə yığılır. Günlük üzərinə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parça çəkilmiş bərk materialdan hazırlanır, yay furajkasının fərqlənmə nişanları səhra geyiminin qış furajkası ilə eynidir (şəkillər 122–124).

Uzunboğaz çəkmə sarıya çalan açıq qəhvəyi rəngdədir, dabanı və altlığı bütövdür, qəliblənmişdir, bağları vardır, burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Əlcək qara rəngli dəridən hazırlanır.

Corab qara rəngdədir və uzunboğaz çəkmə ilə geyinilir.

Şalvar qayışı tünd zeytun rəngindədir.

Yol çantası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanır.";

3.10. aşağıdakı məzmunda 11-ci və 12-ci maddələr əlavə edilsin:

"11. Prokurorluq işçiləri xüsusi geyim forması və fərqlənmə nişanları ilə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normalar üzrə təmin edilirlər.

12. Prokurorluq işçilərinin geyim formasının daşınması qaydalarını Azərbaycan Respublikasının Baş prokuroru müəyyən edir.".

4. "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"nə əlavə - "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinə geyim formasının verilmə norması və istifadə müddətləri" ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 aprel 2023-cü il
№ 850-VIQD